# Oxu təlimində söz, ifadə və cümlələrin mənasının açılması

**Rüfanə Kamil qızı Əliyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aqilamailcom958@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Rəhimov,
p.ü.f.d., prof. S.A. Rəhimova

**Açar sözlər:** oxunun düzgünlüyü, oxunun şüurluluğu, mütaliə, oxunun tənzimlənməsi, sözlərin mənasının açılması, çətin sözlərin mənimsədilməsi

**Ключевые слова:** точность чтения, понимание прочитанного, чтение, регулирование чтения, понимание значения слов, усвоение сложных слов

**Key words:** reading accuracy, reading comprehension, reading, reading regulation, understanding the meaning of words, mastering difficult words

Oxu, şagirdlərin ümumi idrak fəaliyyətini əks etdirən və məzmunun daha dərindən dərk edilməsini və başa düşülməsini tamamlayan prosesdir. İbtidai siniflərdə, məhz bu işin səmərəli təşkili şagirdlərin emosional, həmçinin də intellektual inkişafına, oxu materiallarını şüurlu şəkildə mənimsəməsinə güclü təsir edir (1, s. 57].

N.A.Korf, V.İ.Şermetski, V.A.Fyodorov, N.Kulman, E.A.Adamoviç, N.P.Kononikin, N.A.Şerbakov, A.S.Abdullayev, Y.Ş.Kərimov, M.M.Omorokova, A.N.Rəhimov və s. İbtidai siniflərdə oxu tədrisi ilə bağlı bəzi fikirlərini bölüşürlər. Məhz bu fikirlər, oxu təlimi sahəsində görüləcək işlərə böyük töhfə verir. Oxu materiallarında çətin olan sözlərin, söz birləşmələrinin, cümlələrin şərhi, məzmun və dialektik vəhdət təşkilində olan, forma və ideya problemi ilə bağlı olur. Belə ki, məzmun sözlər, ifadələr və cümlələrdən ibarətdir. Onların hər biri məzmunun müxtəlif elementlərini əks etdirir və müəyyən funksiyalara malik olur. Şagirdlər bir və ya bir neçə çətin sözün, ifadənin və cümlənin mənasını bilmədikdə mətnin məzmununu başa düşə bilmir və bununla da əsas problemi başqa istiqamətə yönəldirlər. Buna görə də, oxunun şüurlu şəkildə öyrənilməsi lazımi dərəcədə olmur. Bu o deməkdir ki, şagirdlər oxunacaq mətnin lüğət tərkibini, cümlələrini, fonetik quruluşunu və s. onların yaşına və ümumi bilik səviyyəsinə uyğun olacaq şəkildə tənzimlənməlidir. Dərs prosesinin hər mərhələsində müxtəlif növ oxu materialları üzərində şüurlu şəkildə işləmək lazımdır. Məhz bu sahədə olan işlər sıra ilə və müntəzəm olaraq aparılmalıdır (1, s. 59).

Şagirdlər oxuduqları mətndə çətin söz və cümlələrə rast gəlirlər. Dərsliklərin mətnlərində elə sözlər də vardır ki, şagirdlər tanıdıqları sözləri yeni sistemdə gördükdə, çox vaxt bu sözlərin mənasını başa düşmürlər. Onlar mexaniki yaddaşa əsaslanaraq məzmunu kor-koranə xatırlayırlar. Ona görə də şagirdlər məzmunu daha yaxşı mənimsəmir, əsas fikirləri, müəllifin nöqteyi-nəzərini anlamırlar, öyrəndikləri bilikləri real həyatla əlaqələndirə bilmirlər. Oxu materialının xarakterindən, kontekst daxilində qazandığı mənadan və funksiyadan asılı olaraq, sözlərin mənasının açılması üzrə işləri dərsin üç mərhələsində aparmaq olar. Bunlar aşağıdakılardır:

1. Mətnin oxunmasından əvvəl;
2. Oxu prosesində;
3. Oxu prosesindən sonra.

Məhz buna görə də çətin sözləri müəyyənləşdirmək və onları dərsin hansı mərhələsində,

necə izah etmək əvvəlcədən dəqiqləşdirilməlidir.

M.İ. Omorokova oxuyarkən, çətin olan sözlərin mənasını şərh edərkən üç istiqamət göstərmişdir (1, s. 60):

a) Cümlələrin və konkret sözlərin mənasını anlamaq üzərində olan iş;

b) Sözün mətndəki rolu, funksiyası və məqsədi;

c) Öyrənilməkdə olan sözlərin nitqlərdə istifadəsi üzərində olan iş.

Hesab edirik ki, mənası anlaşıla bilinməyən sözlər, ifadələr və cümləleri oxunun şüur kontekstindəki roluna görə aşağıdakı kateqoriyalara bölünə bilər:

a) Əsas məzmunun açıqlanmasına bilavasitə təsir edən sözlər, ifadələr və cümlələr;

b) Ayrı-ayrı abzasların mənasının şərhinə təsir edən sözlər, ifadələr və cümlələr;

c) Məzmunun açıqlanmasına birbaşa təsir edən sözlər, ifadələr və cümlələr.

Oxu materialının müşahidəsi göstərir ki, hər bir sözün kontekstdə öz həqiqi mənası var və konkret funksiya yerinə yetirir. Məhz bu səbəblə də hər bir çətin sözün, məcazın və cümlənin təfsiri tam mətnin məzmununu şüurlu şəkildə dərk edilməsinə çalışmalıdır. Uşaqları çətin sözləri oxumağa, yazmağa və təhlil etməyə əvvəlcədən hazırlamaq lazımdır. Çətin sözləri xor və hecalarla oxumaq şagirdlərin oxu qabiliyyətini artırır. Şagirdlər üçün mətnin təkrar oxunması mütaliə sahəsini genişləndirir. Şagirdlərin təkrar oxuma prosesinə marağının itirilməsinin qarşısını almaq üçün hər dəfə yeni ev tapşırıqları tələb olunur. Şagirdlərin oxumasının düzgünlüyünü təmin edən əsas şərtlərdən biri oxu sürətinin tənzimlənməsidir.

Uşaqların özləri oxumağın düzgünlüyünə nəzarətdə iştirak etməlidirlər. Şagirdlər həmyaşıdlarının oxumasını izləmək üçün aşağıdakıları nəzərə almalıdırlar (3, s. 280):

1. Sözlərdə hecalar və ya hərflərin buraxılması;
2. Sözün təhrif edilməsi;
3. Vurğunun doğru şəkildə idarə edilməsi;
4. Sözlərin aydın tələffüzü;
5. Oxu müddətində səlisliyin olması;
6. Durğu işarələrinə diqqət yetirilməsi;
7. İntonasiya gözləntiləri.

Oxu materialını şüurlu şəkildə mənimsəmək üçün antonimlərin seçilməsinə, mənanın şərhinə diqqət yetirmək lazımdır. Sinonimlər kimi, antonimlər də fikirlərin dəqiq və ahəngdar ifadə edilməsində, obrazların hərəkət və xüsusiyyətlərinin üzə çıxarılmasında xüsusi rol oynayır. Cümlənin əsas mənasının anlaşılması elementlərindən biri kimi, çıxış edir (2, s. 152).

K.D. Uşinskinin davamçısı olan, V.A. Flerov oxu kurslarının təşkilinin əsas prinsiplərini, məhz bu şəkildə formalaşdırmışdır: "Bizim vəzifəmiz uşaqlara oxumağa və düşünməyə, oxumağa və hiss etməyə, oxumağa və yaşamağa öyrətməkdir." Buna görə də oxu prosesi mexaniki xarakter daşımır. Bu fəaliyyət şagirdlərə təbii və sosial hadisələr haqqında düşünməyə və yaşamağa imkan verir. Bu, onlardan həyat fəaliyyətlərində istifadə etmək bacarığına yönələn şüurlu bir prosesdir (4, s. 177).

Oxunun ekspressivliyi qavrayışın dərinləşməsi və emosiya, təxəyyül və estetik cəlbediciliyin inkişafı üçün son dərəcə vacibdir. İfadəli mütaliə şagirdlərin sözləri başa düşmək qabiliyyətinə, estetik zövqün inkişafına, mütaliə vərdişlərinin formalaşmasına güclü təsir edir. Məhz belə mütaliə şagirdin mütaliəyə marağını artırır, ona əsərin məzmununu dərk etməyə şərait yaradır. Şagirdlər mətnləri yalnız şüurlu şəkildə düzgün oxuduqları halda ifadəli oxuya bilərlər. Lakin məzmun əsasında ifadəli oxu daha təsirli olur.

**Məqalənin aktuallığı.** Oxu təlimində mənası çətin olan sözlərin izahı düzgün oxu üçün əsas şərtlərdən biridir. Çünki, oxu materiallarında çətin olan sözlərin, söz birləşmələrinin,

cümlələrin şərhi, məzmun və dialektik vəhdət təşkilində olan, forma və ideya problemi ilə bağlı olur. Ona görə də uşaqları çətin sözləri oxumağa, yazmağa və təhlil etməyə əvvəlcədən hazırlamaq lazımdır. Çətin sözləri xor və hecalarla oxumaq şagirdlərin oxu qabiliyyətini artırır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ifadəli oxuda söz və cümlələrin mənasənın aşılması yollarının öyrədilməsinin mahiyyəti və məzmunu araşdırılmış, mənimsədilməsinin yolları müəyyənləşdirilmiş və təşkili forması səciyyələndirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin nəzəri əhəmiyyəti ifadəli oxu zamanı sözlərin mənasının aşılması yollarını daha da təkmilləşdirmək və bu üsullardan pedaqoqların aktiv istifadəsini təmin etməkdir.

## Ədəbiyyat

1. A.N.Rəhimov Əsərləri. 20 cilddə. XX cild (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə)). Bakı, BQU, 2015, 470 s.
2. Abdullayev A.S, Kərimov Y.Ş. İbtidai siniflərdə ana dili tədrisinin metodikası. “Maarif”, Bakı, 1968.
3. Cəfərova. N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə: Dərslik. Bakı, 2016, ADPU-nəş. 403 s.
4. Kərimov Y.Ş. Təlim metodları. “RS Proqres” MMC, Bakı, 2009.

**Р.К. Алиева**

## Объяснять значение слов, выражений и предложений в обучении чтению

## Резюме

Объяснение трудночитаемых слов в обучении чтению является одним из главных условий правильного чтения. Поэтому детей нужно заранее подготовить к чтению, письму и анализу сложных слов. Чтение трудных слов хором и по слогам повышает способность учащихся к чтению.

В статье рассматривается сущность и содержание обучения слов и предложений способам трансцендирования смысла при выразительном чтении, выявляются способы усвоения и характеризуются формы организации.

**R.K. Aliyeva**

## Explain the meaning of words, expressions and sentences in reading

## Summary

Explaining words that are difficult to read in reading instruction is one of the main conditions for correct reading. Therefore, children need to be prepared in advance to read,

write, and analyze difficult words. Reading difficult words in chorus and syllables increases students' ability to read.

The article discusses the essence and content of learning words and sentences in ways of transcending meaning in expressive reading, reveals the ways of assimilation and characterizes the forms of organization.

**Redaksiyaya daxil olub:** 14.04.2022